
Qruplarımız maddi olaraq necə töhfə verir

On Birinci Konsepsiyada belə deyilir: “AN vəsaitləri əsas məqsədimizi yerinə yetirmək üçün istifadə edilməli və məsuliyyətlə idarə olunmalıdır”.

Ən yaxşı halda, qruplar xərcləri ödədikdən sonra onların adından görülən işlərin haqqını ödəmək üçün vəsaiti birbaşa hər bir xidmət səviyyəsinə göndərirlər. Bu nümunə qrupların istifadə edə biləcəyi mümkün bir çox modeldən biridir.



Bəzi qruplar həmçinin kiçik fəaliyyət ehtiyatı (bu bəzən “ağıllı şəkildə saxlanılan ehtiyat” da adlandırılır) saxlayır, bu adətən bir aylıq kirayə və ya xərclərə bərabər olur. *The Group Booklet*[1] “Kassada çox pulun olması az pulun olmasından daha çox problem yaradır” deyə bizi xəbərdar edir.

Qrup vəsaitlərinin idarə olunması ilə bağlı daha çox məlumat üçün həm onlayn, həm də tez-tez istifadə etdiyimiz AN ədəbiyyatı vasitələri olaraq əlçatan olan aşağıdakı mənbələrə müraciət et: *The Group Booklet, Treasurer’s Handbook, Group Treasurer’s Workbook, A Guide to Local Services in NA.*

Bizim Yeddinci Ənənəmizdə öz imkanlarına arxalanmaq sadəcə puldan bəhs etmir, amma bu broşür məhz bu mövzuya həsr olunub. Öz imkanlarına arxalanmaq mövzusu ilə daha çox maraqlanan üzvlərin MB No. 24 – *Pul vacibdir: AN-də öz imkanlarına arxalanmaq, It Works: How and Why* kitabındakı Yeddinci Ənənə mətni və *Twelve Concepts for NA Service* kitabındakı On Birinci Konsepsiya mətnini oxumaqları tövsiyə olunur.

[1] İngilis dilində olan başlıqlar hələ azərbaycan dilində nəşr edilməmişdir.

İANƏLƏRİ HARA GÖNDƏRMƏLİ

ƏRAZİ .....

.....

REGİON .....

.....

DÜNYA NA World Services • PO Box 9999 • Van Nuys, CA 91409 USA
www.na.org/contribute

Üzvlərin fərdi ianələrin əhəmiyyətini anlamasına kömək etmək üçün qruplar səbət ötürülmədən əvvəl oxunmaq məqsədilə belə bir açıqlamanı toplantı formatına əlavə edə bilər:

Yeddinci Ənənəmizdə belə deyilir:

“Hər bir AN qrupu kənardan təklif olunan yardımdan imtina edərək tamamilə öz imkanlarına arxalanmalıdır”.

Anonim Narkomanlarda biz azadlığımızı qorumaq üçün öz yolumuzu özümüz maliyyələşdiririk. Könüllü şəkildə ianə etməklə biz toplantılarımızın davam etməsini təmin edir və AN-i bütün dünyada yaşadan və inkişaf etdirən xidmətləri dəstəkləyirik.

Üzvləri, AN-ə verdiyimiz maddi töhfələrin, bizə yeni bir həyat yolu göstərən bu proqram üçün minnətdarlığımızı ifadə etməyin əsas yollarından biri olduğunu xatırlamağa çağırırıq.

Copyright © 2026 by Narcotics Anonymous World Services, Inc. Bütün hüquqlar qorunur

World Service Office
PO Box 9999
Van Nuys, CA 91409 USA
TEL +1/818 773-9999
WEB www.na.org


Bu AN Konfransının təsdiq etdiyi ədəbiyyatın tərcüməsidir.

Narcotics Anonymous, , , , və The NA Way Narcotics Anonymous World Services, Incorporated-in qeydiyyata alınmış əmtəə nişanlarıdır.

ISBN 9781633805583 • Azerbaijani • 9/26
WSO Catalog Item No. AZ3128


IP Nr. 28-AZ

AN xidmətlərinin maliyyələşdirilməsi



Səbətimizdəki pul hara gedir

Öz imkanlarına arxalanmaq AN xidmətlərinin bizim öz səylərimizlə dəstəklənməsi deməkdir. Daha çox imkanı olan toplantılar, az imkanı olan toplantılar çatışmazlıq çəkməsin deyə daha çox ianə edir. Biz, ümumdünya icması olaraq Anonim Narkomanların qeydinə qalırıq.



Xəbərimizi müxtəlif mədəni və coğrafi sərhədlər boyu əlçatan etmək üçün ədəbiyyat tərcümələri.


"İçəridə" olan asılılara xəbəri çatdırmağa kömək etmək məqsədilə X&M fəaliyyətləri üçün ədəbiyyat və başqa lazımi vəsaitlər.

Asılıların bizi tapmasına kömək etmək üçün telefon xətləri.

Toplantılarımız üçün kirayə, ədəbiyyat və lazımi vəsaitlər.

Cəmiyyətimizdə asılılarla müntəzəm olaraq işləyən insanlara AN haqqında məlumat yaymaq üçün İctimai əlaqələr.

Bunlar vəsaitlərimizin xəbərimizi çatdırmağa kömək etdiyi müxtəlif yollardan bəzilərdir.



Bizim ümumdünya icmamız

AN-in sağalma xəbərini paylaşmaq üçün yerli səylərimizə əlavə olaraq, dil və ya mədəniyyətdən asılı olmadan, hər bir asılıya sağalmanı əlçatan etmək məqsədimizi həyata keçirmək üçün dünyanın hər yerində görüləcək çox iş var.

AN qrupları dünya xidmətlərinə pul göndərdikdə, aşağıdakı səylərin bir qismini dəstəkləməyə kömək edirlər:

- Formalaşmaqda olan AN icmalarına ədəbiyyat və onların çatdırılmasını pulsuz təmin etmək.
- Dünyanın müxtəlif yerlərindən olan nümayəndələrin Dünya Xidmətləri Konfransında iştirakını maliyyələşdirmək. Bu konfrans "Bütövlükdə Anonim Narkomanlara təsir edən məsələlərlə bağlı icmanın öz mövqeyini birgə ifadə etdiyi" yerdir.
- Cəmiyyət üzvlərinin və dövlət nümayəndələrinin AN-in nə olduğunu və nə etdiyini başa düşmələrinə kömək etmək üçün ictimai əlaqə işləri aparmaq.

Keçdiyimiz bir neçə onillik ərzində AN bir neçə yerdə keçirilən azsaylı toplantılardan, 143 ölkədə həftəlik 72 215-dən çox toplantısı olan dünya miqyaslı icmaya çevrilmişdir.[2]

[2] 2023-cü ilə olan məlumata əsasən. *Xəritə coğrafi dəqiqlik məqsədi daşımır.*